**<u>Fərdi uçot əsaslı sosial sığorta sistemində iştirakınız etibarlı pensiya təminatınızdır</u>**

**(İqtisadiyyat və həyat jurnalı. N 3/4 – 2015. səhifə 21-23.)**

Uzun illər əmək fəaliyyəti ilə məşğul olmuş, sonradan yaşlanması, fiziki qüsuru və s. səbəblərdən maddi yardıma ehtiyacı yaranan insanlara kömək etmək cəmiyyət və dövlətin borcudur. Belə təbəqəyə müntəzəm aylıq ödənişi özündə ehtiva edən "Pensiya" anlayışı məhz bu zərurətdən yaranmışdır.

Hamı bir nəfər, bir nəfər hamı üçün prinsipi ilə fəaliyyət göstərən Sovet Azərbaycanının "Nəsillərin həmrəyliyi" pensiya sistemində bir sıra çatışmazlıqlar mövcud olmuşdur. Xüsusən də işləyən vətəndaşların pensiyalarının 50 faizini alması, eləcə də işlədiyi uzun müddət ərzində sosial sığorta ödəyən, lakin pensiya yaşına çatmamış rəhmətə gedən insanların sığorta haqlarının varislərinə verilməməsi ən böyük ədalətsizlik halları idi.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra tamamilə yeni yanaşmaya ehtiyac yarandı. Milli liderimiz Heydər Əliyev xarici təcrübədə özünü doğrultmuş, yüksək sosial təminat mexanizminə malik fərdi uçot sisteminin tətbiqinə qərar verdi.

Baza, sığorta və yığım hissələrindən ibarət olan sistemin əsas mahiyyəti onun əhatə dairəsində olan hər bir şığortaolunanın ayrılıqda fərdi uçotunun aparılması və ödədiyi sosial sığorta məbləğinin fərdi hesabında yığılmasından ibarətdir. Bütün bu proseslər məlumat bazasında toplanır və həmin məlumatlar şəxsin pensiyaya çıxması zamanı əlavə sənəd toplanmasının, vaxt itkisinin qarşısını alır, eyni zamanda gələcək pensiya məbləği haqqında aydın təsəvvür formalaşdırır.

Baza hissəsi pensiya təminatına dövlət öhdəliyini əks etdirir və onun böyük qismi dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Bu məbləğ hazırda hər bir pensiyaçı üçün 100 manat təşkil edir. Sığorta hissəsi real pul kütləsi olmayan pensiya kapitalına, yığım hissəsi isə fərdi hesabda real olaraq toplanan pensiya kapitalına görə təyin olunur.

Artıq 9 ildir ki, fərdi uçot sistemi fəaliyyətdədir. Tətbiq olunmağa başlandığı 2006-cı ildə pensiyaların orta aylıq məbləği 29,8 manat olduğu halda, 2015-ci ilin birinci rübünün sonuna bu rəqəm 175,1 manat təşkil etmişdir. Bu inkişafa səbəb səmərəli fəaliyyət nəticəsində daha çox cəlb olunmuş vəsait və dövlət dəstəyinin pensiyaların müntəzəm artımına imkan yaratmasıdır. 6 dəfəyə yaxın artımla müşayiət olunan nəticələrə baxdıqda məlum olur ki, ötən müddət ərzində sistem müsbət istiqamətdə formalaşıb.

Fərdi uçotun tətbiqi ilə köhnə sistemin bütün texniki qüsurları, xüsusən də sosial ədalətsizlik amillərinin əksəriyyəti aradan qaldırılmış, qalan az qismi isə həll olunmaq üzrədir. Eyni zamanda məbləğlərin şişirdilməsi və kütləvi sui-istifadə hallarını özündə əks etdirən arayış tələbi ləğv edilmiş, beləliklə də saxta arayışlarla əsassız olaraq pensiya hesablanmalarının qarşısı tamamilə alınmışdır.

Yeni sistem vətəndaşların etibarlı pensiya təminatıdır. Bunu Dövlət Sosial Müdafiə Fondunun rəsmi mənbələrinə əsaslanaraq daha sadə şəkildə belə izah etmək olar:

- Bu gün sığortaolunan dəqiq bilir ki, ödədiyi sosial sığorta məbləği başqasının deyil, yalnız özünün pensiyasını formalaşdırır və son qəpiyinədək ona qayıdacaq. Artıq vətəndaşın neçə yerdə işləməsinin də pensiya təyinatı baxımından heç bir problemi yoxdur. Çünki, hansı formada ödənilməsindən asılı olmayaraq bütün vəsaitlər yalnız bir hesabda toplanır və nə qədər çox yığılarsa, pensiya məbləği də bir o qədər yüksək olar. Beləliklə də işçi nəinki sosial sığortanı ödəməkdən yayınacaq, əksinə gələcək yüksək təminatı naminə dəqiq və daha çox ödəniş etməyə maraqlı olacaq;
- Bütün proseslərin, eləcə də pensiya verilməsinin avtomatlaşdırılması nəticəsində insan

amilindən asılılıq minimuma endirilərək, şəffaflıq ən yüksək səviyyədə təmin olunub. Pensiyaçılar pullarını plastik kartlar vasitəsilə aldıqları üçün əlavə vəsait tutulması və s. kimi neqativ hallara qətiyyən rast gəlinmir. Yaxud, hər kəs pensiya kalkulyatoru vasitəsilə bir neçə dəqiqə ərzində pensiya məbləğini dəqiqliklə hesablaya bilər;

- Sistem bütün işləyən kateqoriyaları əhatə edir. Məsələn, ötən dövrdə hərbçilər üçün xidmət illəri tətbiq olunurdu. Bu şərtə cavab verməyənlər pensiya ala bilmirdi. Ancaq mövcud şərait bu təbəqənin hətta tələb olunan illəri yığa bilmədiyi halda belə fərdi hesabındakı vəsaitə əsasən hərbi qulluqçu kimi olmasa da, adi vətəndaş kimi pensiya almağına imkan verir.

Prezident İlham Əliyev 30 dekabr 2008-ci ildə "2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair dövlət Proqramı", 04 noyabr 2014-cü ildə isə "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"nı təsdiq etməklə islahatlar dövrünün əsasını qoydu.

Yeni konsepsiyanın əsas məqsədi pensiya təminatı sisteminin yüksək maliyyə dayanıqlığına nail olmaq, vətəndaşların sosial müdafiəsi və layiqli həyat səviyyəsini təmin etməkdir. Onun icrası nəticəsində yığım potensialı güclənəcək, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsindən yayınmaların sayı azalacaq ki, nəticədə pensiyaçılar daha yüksək maliyyə təminatı ilə əhatə olunacaqlar. Eyni zamanda konsepsiya sığortaolunanların maraqlarına cavab verərək kişilər və qadınlar üçün pensiya yaşının demoqrafik göstəricilərə uyğunlaşdırılması, məcburi dövlət sosial sığortasına cəlb edilən əməkhaqqına müəyyən hədd qoyulmaqla, bundan yuxarı məbləğ üçün ödənilən sosial sığorta haqqının istifadəsinin vətəndaşların seçiminə verilməsi, könüllü sosial sığorta haqqının ödənilməsi şərtlərinin müəyyənləşdirilməsi, qeyridövlət pensiya institutlarının formalaşdırılması üzrə təkliflərin hazırlanması kimi vacib fəaliyyətləri də həyata keçirməyi planlaşdırır.

Fərdi uçot sisteminin inkişafı şərtləndirən xüsusiyyətlərindən biri də islahatlara açıq olmasıdır. Belə ki, yeni islahatlara əsasən əmək pensiyasının baza hissəsi əvəzinə minimum pensiya məbləği tətbiq ediləcək ki, bu da pensiyaların bütün məbləğinin hər il indeksləşdirilməklə artımına imkan verəcək.

Vətəndaşa əlavə təminatı nəzərdə tutan qeyri-dövlət pensiya fondlarının formalaşdırılması isə əsas prioritetlərdəndir. Bununla əhali yalnız dövlət pensiya fonduna deyil, könüllülük əsasında özəl fondlara da ödəniş etmək imkanı əldə edəcək. Nəticədə yaranacaq azad rəqabət mühiti davamlı inkişafı labüd edəcək. Bu da mütəmadi olaraq pensiyaçıların sosial şəraitinin yaxşılaşması ilə nəticələnəcək. Yeni və vacib anlayış olduğunu, eləcə də cəmiyyətin bu barədə az məlumatlılığını nəzərə alaraq qeyri-dövlət pensiya fondlarının mahiyyətini vətəndaşlara daha düzgün şəkildə izah etmək məqsədilə maarifləndirici veriliş və tədbirlərin təşkili, eləcə də əhalinin daha sıx olduğu ictimai yerlərdə, nəqliyyat vasitələrində məlumatlandırıcı lövhələrin yerləşdirilməsi məqsədəuyğun olar. Fəaliyyətinə gəldikdə isə bu fondların iş mexanizmi elə səmərəli şərtlər əsasında təşkil olunmalıdır ki, insanlar könüllü olaraq onlara müraciət etsinlər. İlk növbədə isə mükəmməl qanunvericilik bazası yaradılmalı, azad rəqabət qabiliyyətli fəaliyyət təmin olunmalıdır. Bu, gələcəkdə vətəndaşların seçim imkanlarının yaxşılaşdırılmasına şərait yaratmaqla, onların pensiya məbləğlərinin artımına imkan verəcək. Bu mənada Almaniyada tətbiq olunmuş təcrübədən də yararlanmaq olar. Belə ki, məcburi dövlət sosial sığorta haqqının şamil edildiyi əməkhaqqının maksimum həddi müəyyən edilməli, nəticədə daha yüksək məvacib alan insanların özəl fondların fəaliyyətində iştirakı təmin edilməlidir. İqtisadiyyatın müxtəlif sahələri üzrə işçilərinin əvəzindən könüllü sığorta münasibətlərində iştirak edən özəl təşkilatları daha da həvəsləndirmək məqsədilə onlara vergi güzəştləri də tətbiq etmək olar.

Yeni islahatlar mövcud çatışmazlıqların aradan qaldırılmasında da müstəsna əhəmiyyətə malikdir. Belə ki, pensiya yaşına qədər 12 ildən az işləmiş, ancaq ardıcıl yüksək məbləğdə sosial sığorta ödəyən işçi staj tələbi səbəbindən pensiyaya çıxa bilmir. Minimum pensiya məbləğinin tətbiqi nəticəsində bu problem də həll olunacaq, ödədiyi sığorta məbləği minimum məbləğdən yuxarı olan şəxslərə staj tələbi qoyulmayacaq.

İşçi pensiyaya çıxmadan dünyasını dəyişərsə, varisləri mərhumun fərdi hesabında yığılan vəsaiti, hətta həmin vəsaitlərin dövriyyəsindən yaranan gəlirləri də əldə etmək imkanı qazanacaq. Fərdi uçot sisteminin müsbət cəhətlərindəndir ki, sığortaolunanların ödənişləri nəinki pensiya şəklində özlərinə qayıdacaq, hətta dövriyyəyə cəlb olunaraq onlara əlavə gəlir qazandıracaq.

İslahatlar nəticəsində işləyən pensiyaçılar həm də pensiyalarını 100 faiz almaq imkanı əldə edəcək, nəticədə isə sosial sığorta ödəyiciləri daha yüksək pensiya alacaqlar. Eyni zamanda köhnə sistemin daha bir sosial ədalətsizlik amili aradan qaldırılmış olacaq.

Yüksək ədalətlilik prinsiplərinə əsaslanan mövcud pensiya sistemi xaricdə çalışan Azərbaycan vətəndaşları, eləcə də ölkəmizdə işləyən əcnəbilərin də sosial təminat məsələlərini nəzərdə tutur və bu istiqamətdə əməli tədbirlər görülür.

İslahatların məntiqi nəticəsi olaraq dövlətin pensiya sisteminin maliyyələşməsindəki rolu məhdudlaşdırılacaq və paralel olaraq pensiya sisteminin də dövlət büdcəsindən asılılığı tamamilə aradan qaldırılacaq. Beləliklə də zəngin ehtiyat bazasına malik və daha müstəqil olacaq sistem sərbəst şəkildə sığortaolunanların ən yüksək maraqlarına uyğun bütün lazımi islahat və qərarlara imza atacaq, Azərbaycan pensiyaçısının sosial şəraitini dünyanın ən yüksək təminat səviyyəsinə qaldıracaq. Dövlətin əsas məqsədi də məhz budur. Elə isə yolumuz açıq olsun!

Qurban Süleymanov